

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 42 (21.452)

3 mart 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## H.İ.Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafında xidmətlərinə görə Həsən İbrahim oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 mart 2016-cı il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Martın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Muratla görüşmüşdür.

Qonağı Naxçıvanda görməkdən məmnunluğunu bildirən Ali Məclisin Sədri onun ölkəmizdəki birinci fəaliyyəti dövründə Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan, eləcə də Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırmışdır. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Birləşmiş Millətlər Təşkilatı arasında əlaqələrin olduğunu bildirmiş, münasibətlərin bundan sonra da qarşılıqlı faydalı əməkdaşlıq şəraitində davam etdirilməsinin əhəmiyyətini vurğulamışdır.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Murat göstərilən səmimi münasibətə görə minnətdarlıq etmiş, Naxçıvan Muxtar Respublikasının inkişafının onda xoş təəssürat yaratdığını bildirmişdir. Qonaq təmsil etdiyi təşkilatla Azərbaycan, eləcə də onun Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişafı istiqamətində səyini artıracağını qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi və əhatə dairəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin və hər ilin yekununda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 mart 2016-cı il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## 2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə PROQRAM

### 1. Giriş

Müasir iqtisadi şəraitdə elektron ödəniş sistemi maliyyə sabitliyinin və ümumi iqtisadi inkişafın təminatında mühüm əhəmiyyət kəsb edir.

Elektron ödəniş xidmətlərinin tətbiqi təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə xidmət edir.

2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması" üzrə Tədbirlər Planının icrası nağdsız ödənişlərin həcminin artırılması, əhatə dairəsinin, eləcə də elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsində mühüm rol oynamışdır.

Görülmüş tədbirlər nəticəsində nağdsız ödənişlərin həcmində ilbəil artım olmuş, dövlət sektorunda əmək haqlarının ödəniş kartları vasitəsilə ödənilməsi prosesi başa çatdırılmışdır.

Tədbirlər Planının icrası nəticəsində 2016-cı ilin 1 yanvar tarixinə muxtar respublika ərazisində 500 ədədi Naxçıvan şəhərində, 544 ədədi rayon və kənd mərkəzlərində olmaqla, cəmi 1044 ədəd POS-terminal mövcud olmuşdur. Bu, 2014-cü illə müqayisədə 4 dəfə çoxdur.

2016-cı ilin 1 yanvar tarixinə muxtar respublika ərazisində 55-i Naxçıvan şəhərində, 43-ü isə rayon və kənd mərkəzlərində olmaqla, ümumilikdə, 98 ədəd bankomat quraşdırılmışdır.

Dövlət qurumları tərəfindən göstərilən xidmətlər üzrə ödənişlərin, cərimə və rüsumların elektron ödəniş formasında aparılması üçün lazımi infrastruktur yaradılmışdır. Eyni zamanda dövlət orqanlarının inzibati xərclərinin də korporativ kartlar vasitəsilə, kommunal xidmət haqlarının isə internet üzərindən ödənilməsi imkanları yaradılmışdır.

Nağdsız ödənişlərin inkişafı üçün lazımi infrastrukturun yaradılması ilə yanaşı, maarifləndirici tədbirlərin keçirilməsi də diqqət mərkəzində saxlanılmışdır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Vergilər Nazirliyi tərəfindən həyata keçirilən həvəsləndirici tədbirlər də əhalini elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə sövq etmişdir.

Proqramın məqsədi müasir elektron ödəniş xidmətlərinin tətbiqi, nağdsız hesablaşmaların genişləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir.

### 2. Proqramın əsas istiqamətləri

Proqram üzrə qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- Elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi, yeni xidmətlərin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi;
- Əhalinin və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq edilməsi.

### 3. Proqramın həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | İcraçı orqanlar | İcra müddəti |
|---|---|---|---|
| 3.1. | Mövcud ödəniş infrastrukturunun (POS-terminal, bankomat və digər ödəniş terminalları) daha da təkmilləşdirilməsi | Vergilər Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2016-2018-ci illər |
| 3.2. | Kommunal və rabitə xidmətləri üzrə ödənişlərin "Hökumət Ödəniş Portalı" vasitəsilə ödənilməsi, əvvəlcədən ödəniş prinsipli elektron sayğaclarda istifadə olunan SMART-kartlara vəsaitlərin köçürülməsi üçün yeni avadanlıqların quraşdırılması | Rabitə və Yeni Texnologiyalar Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Dövlət Energetika Agentliyi, "Naxçıvanpoçt" MMC, "Naxçıvanqaz" İstehsalat Birliyi | 2016-2018-ci illər |
| 3.3. | Ali və orta ixtisas təhsili müəssisələrində təhsil haqlarının bank, poçt və "Hökumət Ödəniş Portalı" vasitəsilə ödənilməsinin təmin edilməsi | Təhsil və Səhiyyə nazirlikləri, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, ali təhsil müəssisələri, Rabitə və Yeni Texnologiyalar Nazirliyi | 2016-2018-ci illər |
| 3.4. | Banklar tərəfindən müasir ödəniş texnologiyalarından istifadə etməklə məsafəli bank xidmətlərinin genişləndirilməsi | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2016-2018-ci illər |
| 3.5. | Dövlət orqanlarının inzibati xərclərinin (təsərrüfat, dəftərxana, ezamiyyə və s.) ödənişində korporativ kartlardan istifadənin genişləndirilməsi | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi | 2016-2018-ci illər |

Ardı 2-ci səhifədə

| | | | |
|---|---|---|---|
| 3.6. | Özəl sektorda işçilərin əmək haqlarının nağdsız formada (ödəniş kartları ilə) ödənilməsinin təşviq edilməsi | İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Sahibkarlar Konfederasiyası | 2016-2018-ci illər |
| 3.7. | Muxtar respublikada istehsal olunan mal və məhsulların, milli dəyərləri əks etdirən əşyaların, əl işlərinin internet kataloqunun hazırlanması və elektron satışlarının təşkil edilməsi | İqtisadiyyat Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Sahibkarlar Konfederasiyası | 2016-2018-ci illər |
| 3.8. | “Naxçıvanpoçt” MMC-nin xidmət şəbəkəsində maliyyə xidməti göstərən şöbələrin ixtisaslı kadrlarla təmin edilməsi, əhalinin elektron ödəniş sistemlərinə çıxış imkanlarının yaxşılaşdırılması | Rabitə və Yeni Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2016-2018-ci illər |
| 3.9. | Nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında həvəsləndirici tədbirlərin keçirilməsi | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2018-ci illər |
| 3.10. | Pərakəndə ticarət və ictimai iaşə müəssisələrində nağdsız ödənişlərin təşviqi məqsədi ilə banklar tərəfindən müxtəlif güzəştlərin tətbiq edilməsi | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2016-2018-ci illər |
| 3.11. | Elektron ödəniş xidmətlərindən istifadə vərdişlərinin formalaşdırılması üçün təbliğat işlərinin davam etdirilməsi | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi, Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, “Şərq qapısı” və rayon (şəhər) qəzetləri | 2016-2018-ci illər |
| 3.12. | Ödəniş kartları sahəsində çalışan bank əməkdaşlarının bilik və bacarıqlarının yüksəldilməsi məqsədilə treninqlərin keçirilməsi | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2016-2018-ci illər |

# BMT-nin nümayəndəsi Naxçıvanın mədəniyyət müəssisələri, tarixi abidələri, istehsal sahələri ilə tanış olub

***Martın 2-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Murat Naxçıvan şəhərinin mədəniyyət müəssisələri, tarixi abidələri, istehsal sahələri ilə tanış olub.***

Qonaq əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək buraya gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Dövlət Xalça Muzeyi ilə də tanış olan qonağa məlumat verilib ki, hazırda muzeydə nümayiş etdirilən nümunələrin sayı 300-ü keçib. Burada müasir qoruma standartlarına uyğun şərait yaradılıb. Xovsuz və xovlu xalça növləri, habelə məfrəş, xurcun, torba kimi məmulatların ən gözəl nümunələri muzeyi bəzəyir. İndi bu mədəniyyət ocağında Naxçıvan qrupuna aid 109 xalça nümayiş etdirilir.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Murat “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub.

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində saxlanılan, muxtar respublikanın ərazisində aşkarlanan tarixi əşyalar qonağın marağına səbəb olub.

Biznes Mərkəzində qonağa məlumat verilib ki, hazırda burada muxtar respublikada 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal olunan məhsullar nümayiş olunur. Sərgidə Naxçıvanın yerli məhsulları olan kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər 900-dən çox çeşiddə müxtəlif məhsullar nümayiş etdirilir. Muxtar respublikamızdakı iri özəl sektor təmsilçiləri olan Gəmiqaya Holdinq,



Dizayn Holdinq, Araz Holdinq, Cahan Holdinq, Zümrüd Kiçik Müəssisəsi, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Martın 2-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Muratın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Naxçıvan səfərinin təəssüratları barədə danışan Ercan Murat dedi: “Mən 1997-2001-ci illərdə BMT-nin nümayəndəsi kimi Azərbaycanda fəaliyyət göstərmişəm. Həmin illərdə bir neçə dəfə muxtar respublikada səfərdə olmuşam. Mən Naxçıvanı çox sevirəm. Ona görə də 14 il sonra təkrar Naxçıvana səfər edərək bu gözəl diyarı görmək istədim. Gəldim və burada gördüklərim məni heyrətə saldı. Naxçıvan çox dəyişib və inkişaf edib. Mən muxtar respublikanın paytaxtını görəndə gözlərimə inana bilmədim. Çox yüksək səviyyəli infrastruktur yaradılıb, gözəl binalar inşa olunub, köhnə binalar əsaslı təmir edilib, tarixi keçmişə xüsusi həssaslıqla yanaşılıb, muzeylər yaradılıb. İnsanlar burada rahat və firavan yaşayırlar. Naxçıvanda sənaye də inkişaf edib. Ümumilikdə, Naxçıvan çox böyük inkişaf yolu keçib. Mən buna görə bütün naxçıvanlıları alqışlayıram, təbrik edirəm. Naxçıvandakı inkişafdan zövq aldıq, şad olduq”.

Ercan Murat onu da qeyd etdi ki, Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının əlaqələrinin bundan sonra da inkişafı üçün əlindən gələni əsirgəməyəcək.

✍ **Rauf ƏLİYEV**

# Nümunəvi xidmətin ünvanı – *Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi*

***Ölkəmizin digər regionlarında olduğu kimi, muxtar respublikamızda da genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir, Naxçıvan şəhərindən, rayon mərkəzlərindən başlamış ucqar dağ və sərhəd kəndlərinədək geniş və rahat yollar salınır, yol-nəqliyyat infrastrukturu daha da təkmilləşdirilir, yeni məktəblər, kənd mərkəzləri tikilib sakinlərin istifadəsinə verilir. Qədimliyi saxlanılmaqla müasirləşən, yeniləşən Naxçıvanın simasına yeni çalarlar qatan, müasir memarlıq üslubu ilə gözoxşayan, bir-birini tamamlayan, lakin bir-birinə bənzəməyən sənət əsərləri həyata vəsiqə alır, insanların məşğulluğuna, istirahətinə və onlara nümunəvi xidmət göstərilməsinə əlverişli şərait yaradılır. İnsanların maddi rifahı yaxşılaşdıqca, təbii ki, daha yaxşı fərdi yaşayış evləri tikilir, daha komfortlu avtomobillər alınır. Amma istər təhlükəsizlik, istərsə də rahatlıq baxımından avtomobillərin mütəmadi olaraq müayinədən keçirilməsi, lazımi ehtiyat hissələrinin yenilənməsi də vacib şərtdir.***



Soyuq qış günü idi. Avtomobilimdə yaranmış nasazlıqla əlaqədar ustaya müraciət etdim. Usta lazım olan ehtiyat hissələrini siyahı edib almağı məsləhət gördü. Mən də siyahı əlimdə həmişəki kimi, mütəmadi alver etdiyim ehtiyat hissələrinin satışı mağazasına, Mehman ustanın yanına yollandım. Başı bərk qarışıq idi. Məndən öncəki müştərilərin verdikləri sifarişə uyğun olaraq axtarış aparır, üst-üstə qalaqlanmış ehtiyat hissələrinin birini tərpədən kimi 10-15-i aşıb tökülür, bir-birinə qarışırdı. Bir tərəfdən də qurduğu odun sobasına atdığı plastik tara qırıqları, karton kağız yanmır, tüstüdən göz-gözü görmürdü. “Qızınmadıq istisinə, kor olduq tüstüsünə”, – deyən Mehman usta əllərini ovuşdura-ovuşdura qapının şüşəsindən görünən yaraşıqlı binaları göstərib, – İnşallah, bizə də belə bir yaraşıqlı bina tikilər, bu əzabəziyyətdən canımız qurtarar, – deyib əlimdəki siyahını alıb yenidən axtarışa başladı.

– Usta, Naxçıvan şəhərində şəraitli bir satış mərkəzi inşa olunur. Yaxın günlərdə istifadənizə verilər. Siz şəraitsiz bir yerdə, uyğunlaşdırılmış binada işləməkdən, biz alıcılar isə saatlarla vaxt itirməkdən xilas olarıq – dedim. Mehman usta əlindəki siyahını mənə uzadıb, – birikisini tapa bilmədim, qonşu dükanda Cəmşiddən soruş, – dedi. Cəmşidin dükanı elə darısqal idi ki, hərəkət etmək mümkün deyildi. Qapıdan boylanıb siyahını ona verdim. Yarım saat axtardıqdan sonra dükandan çıxan Cəmşid əlində dəmir nərdivanla qayıtdı. Ehmalca dükana söykəyib təhlükəsizlik baxımından bir-iki yoxlama apardıqdan sonra çox da hündür olmayan binanın üstünə çıxıb “əməliyyatı” davam etdirdi. Birsaatlıq “tavan əməliyyatı” uğurlu sonluqla başa çatdı. Amma Cəmşid usta neçə illərdir, istifadə etdiyi nərdivanı buzun üstünə qoyduğundan pillələri bir-bir enməyə ehtiyac olmadı. Elə nərdivanla birlikdə yerə çırpıldı. – Eh, bu şəraitdə işləmək olar? – deyib öz-özünə gileylənib üst-başını çırpa-çırpa əlindəki ehtiyat hissələrini mənə verdi. Beləliklə, ehtiyat hissələrinin satışı mağazasında adlandırdığımız, lakin qaraja oxşar tikilidə baş verən tragikomik əhvalatdan qurtulub təmir sexinə yollandım.

Elə avtomobil bazarında da eyni vəziyyət hökm sürürdü. Avtomobillərin alqı-satqısı ilə məşğul olanlar neçə ildir, daha çox gediş-gəlişi olan “Cahan” Ticarət Mərkəzinin ətrafında – “Qoçüstü” məhəlləsində lövbər salıb, “bazar” qurmuşdular.

Yaşadığım “Qoçüstü” məhəlləsində üzərində “satılır” yazılmış avtomobillər xüsusilə şənbə və bazar günləri ərazini “mühasirəyə” alır, avtomobillərin və piyadaların hərəkətinə maneçilik törədir, bu ərazidə yaşayanların gediş-gəlişini müşkülə çevirir, əlavə problemlər yaradırdı. İnsafən onu da deyək ki, həftənin digər günlərində bir az sakitlik və seyrəklik olsa da, bəzi avtomobil sahibləri bunu da bizə çox görür, elə maşınlarını yol kənarında qoyub getməklə qəza şəraiti yaradırdılar.

Cari ilin fevral ayında Naxçıvan şəhərinin “Atabəylər” məhəlləsində Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qarajın istifadəyə verilməsi ilə bu sahədə olan problemlər aradan qaldırılıb. Zirzəmi ilə birlikdə iki mərtəbədən ibarət olan, 12 min 120 kvadratmetr ərazini əhatə edən mərkəzin zirzəmisində 304 yerlik yeraltı qaraj, yerüstü hissəsində isə 192 yerlik avtomobil satışı yeri, 57 ehtiyat hissələri mağazası, kafe və texniki xidmət sahələri fəaliyyətə başlayıb. Ümumi sahəsi 40 kvadratmetr olan, hər biri fərdi istilik sistemi ilə təchiz olunmuş mağazalarda istənilən modeldə avtomobillərin ehtiyat hissələrinin satışı təşkil edilib. Həmçinin mərkəzdə avtoyuma, elektrik və çilingər xidmətlərinin də göstərilməsinə əlverişli şərait yaradılıb. Nümunəvi xidmət göstərilməklə bərabər, əhalinin məşğulluğu da təmin olunub, ümumilikdə, 200-dən artıq yeni iş yeri açılıb.

Burada avtomobillərin maneəsiz hərəkəti və təhlükəsizliyi üçün bütün tədbirlər görülüb, müasir havalandırma, işıqlandırma və yanğınsöndürmə sistemləri qurulub, giriş və çıxışlar avtomatlaşdırılıb. Mərkəzin ərazisində videonəzarət sistemi yaradılıb.

Satışa çıxarılan avtomobil ehtiyat hissələrinin standartların tələblərinə uyğunluğu nəzarətdə saxlanılıb, alqı-satqı zamanı avtomobillərin dövlət qeydiyyatı və sığorta olunması məqsədilə mərkəzdə səyyar xidmətin təşkili də təmin olunub.

Müasir tələblərə uyğun qurulan Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qaraj təkcə Mehman ustanın, Cəmşid ustanın yox, yüzlərlə avtomobil sahibinin arzusunu reallığa çevirib. Bu obyekt nümunəvi satış mərkəzi olmaqla bərabər, yerləşdiyi əraziyə yeni bir görkəm verib. Bu yaradılanları gördükcə istər-istəməz keçmişi xatırlayırsan. Bir vaxtlar çala-çökək yollar üzündən taksi sürücülərinin “ehtiyat təkərim yoxdur” deyib, maşın sürməkdən boyun qaçırdığları bu ərazi son illər abadlaşdırılıb, burada müasir üslubu ilə gözoxşayan “Naxçıvan” Universiteti şəhərciyi istifadəyə verilib, çoxmərtəbəli ictimai yaşayış binaları tikilib, qədimliyi özündə əks etdirən Şərq hamamı inşa olunub. Elə bu günlərdə istifadəyə verilən Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi də Naxçıvan şəhərinin gözəlliyinə yeni çalarlar qatıb.

Avtomobili olanlar yaxşı bilir. Kim ehtiyat hissələrini kimdən alırsa, yerini dəyişsə də etibarlı tərəfdaş kimi harada olursa-olsun onu axtarıb tapır. Elə mən də, necə deyərlər, bu yazılmamış qanuna əməl edib satış mərkəzində Mehman ustanı, Cəmşidi soraqlaşıb tapdım. Hal-əhval tutduq. Əhval-ruhiyyələri yaxşı idi.

– Ay Mehman usta, şükür çox gözəl şəraitiniz var. Bəs sizin pas basmış odun sobanız hanı?

Mehman usta ilə bərabər, mağazadakı müştərilər də gülüşdülər.

– Daha ona ehtiyac yoxdur. Burada müasir istilik sistemi var.

Ayrı-ayrı bölmələrdə səliqə ilə düzülmüş ehtiyat hissələrini göstərərək – daha saatlarla vaxt itirməyəcəyik, – deyir. Nümunəvi xidmət üçün hər cür şərait yaradılıb. İndi istənilən modeldə avtomobillərin ehtiyat hissələri bu mərkəzdə satılır. Daha o döngə sənin, bu döngə mənim deyib ehtiyat hissələri axtarmağa ehtiyac yoxdur. İndi nəinki ehtiyat hissələri, elə istənilən modeldə avtomobilləri də bu satış mərkəzindən almaq olur. Həm satıcılar, həm də alıcılar adından bu şəraiti yaradanlara minnətdarlığımızı bildiririk.

Mərkəzdə söhbətləşdiyim və bu ərazidə yaşayan, yeraltı qarajın xidmətlərindən istifadə edən avtomobil sahibləri də yaradılan şəraitdən razılıqlarını ifadə etdilər. Beləcə, müasirləşən, yeniləşən Naxçıvanın quruculuq xəritəsinə yazılan daha bir ünvandan xoş təəssüratla ayrıldıq. İftixar hissi keçirdik. Qurub-yaradan əlləriniz var olsun, – dedik.

✍ **Kərəm HƏSƏNOV**

Yeni nəşrlər

# Doğma diyarın poetik tərənnümü

**_Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bəşər sivilizasiyasının ilkin məskənlərindən biridir. Bu ulu məmləkət zaman-zaman yaradıcı ziyalılara tükənməz ilham vermiş, şairlər, rəssamlar, musiqiçilər bənzərsiz diyarımızı məhəbbətlə vəsf etmişlər. Bu yaxınlarda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunmuş "Xoş baharlı Naxçıvanım" adlı almanaxda toplanmış şeirlər və poemalar da məhz qədim və həmişəcavan yurdumuza poetik ehtiramın təcəssümü kimi diqqəti çəkir. Əlbəttə, Naxçıvana həsr edilmiş çoxsaylı bədii əsərlər vardır və bu gün də söz sənətkarları digər sahələrlə yanaşı, həmin mövzuda da uğurlu yaradıcılıq axtarışları aparırlar. 192 səhifəlik "Xoş baharlı Naxçıvanım" almanaxında muxtar respublikamıza həsr edilmiş şeir və poemalardan seçmə nümunələr verilmişdir. Daha dəqiqi, bu kitabda oxucular müxtəlif müəlliflərin qələminə məxsus qırx şeir və üç poema ilə tanışlıq imkanı qazanırlar._**




Kitabda təkcə müasirimiz olan şairlərin deyil, nisbətən əvvəlki mərhələnin yazarlarının da bir sıra əsərləri toplanılmışdır. Bu isə almanaxın əhatəsinin genişliyini göstərməklə yanaşı, həm də ədəbi irsə və ənənəyə ehtiram baxımından da təqdirəlayiqdir. Belə müəlliflərin Naxçıvan haqqında qələmə alınmış diqqətəlayiq əsərləri sırasında Məmməd Arazın "Bura Naxçıvandı", İslam Səfərlinin "Xoş baharlı Naxçıvanım", Adil Babayevin "Tarımın sarı simi", Hüseyn Razinin "Hədiyyə", Əliyar Yusiflinin "Asta sür qatarı", Müzəffər Nəsirlinin "Bahar nəfəsli diyar", Hüseyn Əzimin "Dübəndi çayı" şeirlərini göstərmək olar. M.Arazın şeirində yurdumuzun müxtəlif tarixi dönəmlərdə üzləşdiyi bəlalar yada salınır və heç zaman düşmənə baş əyməyən, yumruq kimi bir olan yenilməz Naxçıvan vəsf olunur, şair həm də hər bir yurddaşımızı daima ayıq-sayıq olmağa səsləyir:

*Kirpiyini ayıq saxla,*
*Hənirtini ayıq saxla,*
*Nəfəsini ayıq saxla.*
*Biz – biri min,*
*Biz – mini bir!..*
*Yolumuzun yolu burdan,*
*Göyümüzün yolu burdan,*
*Burdan keçir, oğul!*
*Sərilməz, əyilməz qalamız*
*Naxçıvan,*
*Bura Naxçıvandı, oğul!*

İ.Səfərlinin məşhur şeirində "gülzarlı, axar-baxarlı, düz ilqarlı, xoş baharlı Naxçıvanım" ifadələri ilə vəsf olunan muxtar respublikamız M.Nəsirlinin poetik təqdimatında ədəbiyyatımıza və mədəniyyətimizə Memar Əcəmi, Heyran xanım, Qönçəbəyim, Mirzə Cəlil, Hüseyn Cavid kimi böyük simalar vermiş bahar nəfəsli diyar kimi tərənnüm edilmişdir. H.Razinin "Hədiyyə"sində yurdumuzun övladlarının özünəməxsus mənəvi ucalığı, Ə.Yusiflinin "Asta sür qatarı" şeirində isə diyarımızın qürur, yenilməzlik dolu keçmişi bədii şəkildə ümumiləşdirilmişdir. A.Babayevin şeirində "hər ulu dağında bir hünər izi" olan Naxçıvana bəslənilən məhəbbət duyğuları "mərdlik meydanı, sərvət sərgisi", "ulduzlu göylərdə kəhkəşan" kimi obrazlı ifadələrlə poetikləşdirilmişdir.

Qədim tarixə malik ulu Naxçıvanımızın taleyinin ən şərəfli səhifələri ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı illərin əvvəllərində ağır blokada şəraitində, hər an düşmən tapdağına düşmək təhlükəsində yaşayan Naxçıvanı məhz ulu öndər Heydər Əliyev qorumuş, xilas etmiş, hərtərəfli inkişaf yoluna çıxarmışdır.1993-cü ildə xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə gələn görkəmli siyasi xadim Heydər Əliyev bütövlükdə müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir. "Xoş baharlı Naxçıvanım" almanaxında verilmiş şeirlərin bir qismində də məhz dahi rəhbərin möhtəşəm xilaskarlıq və quruculuq fəaliyyətinə ümumxalq minnətdarlığı özünün dolğun poetik təcəssümünü tapmışdır. Asim Yadigarın "Gəldi, ulu Heydərin İlham dühası gəldi!" şeiri bu baxımdan səciyyəvidir:

*Tufanlar, qasırğalar tüğyan edən zamanda*
*Gəldi, ulu öndərim Simurqun qanadında,*
*Sönmüş, donmuş çöhrələr gül açdı Naxçıvanda.*
*Gözümüzün işığı, nuru, ziyası gəldi,*
*Anam Azərbaycanın Heydər dühası gəldi!..*

Bu gün ölkəmizdə ulu öndər Heydər Əliyev yolunun bütün sahələrdə uğurla davam etdirilməsi də şeirdə poetik şəkildə ifadə olunmuşdur:

*Naxçıvan hər sınaqdan çıxıb üzüağ, mətin,*
*Düşmən görüb bu yurdun cəsarətin, qeyrətin.*
*Bu məğrur, zəhmətsevər, əyilməyən millətin*
*İmzaların içində adı, imzası gəldi,*
*Gəldi, ulu Heydərin İlham dühası gəldi!*

Şairin "Vətən oğlu" şeirində isə qısa müddət ərzində qərinələrə bərabər inkişaf yolu keçmiş doğma Naxçıvanımızın belə heyrətamiz yüksəlişinin əsas səbəbi kimi ümummilli liderin ideyalarının muxtar respublikamızda hərtərəfli şəkildə və yüksək səviyyədə həyata keçirilməsi vurğulanmışdır:

*Yurdumun hər qarışına can vermisən, can,*
*Canımız tək əziz olub bizə Naxçıvan.*
*Bu torpağa ulduz-ulduz naxış vurursan,*
*Hünərinə alqış deyir el, Vətən oğlu!..*

*Xoş məramın, amalın var – hünər yoludur,*
*Yurda sonsuz məhəbbətlə qəlbin doludur,*
*Arzun qurmaq, yaratmaqdır – Heydər yoludur,*
*Budur sənin seçdiyin düz yol, Vətən oğlu!*

Əziz Kərimoğlunun "Vətənimin gözəllikdə yox tayı", Əziz Azərin "Tanımadım Naxçıvanı", Elman Həbibin "Naxçıvan", Budaq Təhməzin "Bir gün Naxçıvanda sən qonaq olsan", Fərəc Fərəcovun "Naxçıvanım var", Elxan Yurdoğlunun "Sən sevgilim, sən anamsan", Süreyya Nəsibin "Naxçıvan", Ramiz Babayevin "Çiçəklənən Naxçıvan", Rahilə Dövranın "Yüksəlişə, sürətə bax", Qurban Məhərrəmoğlunun "Artır şan-şöhrəti Naxçıvanımın", Yaqub Şirinoğlunun "Naxçıvanım" və sair şeirlər də muxtar respublikamızın möhtəşəm yüksəlişinin oyatdığı xoş duyğuları rəngarəng bədii təsvir və ifadə vasitələrinin köməyi ilə əks etdirir. Quruculuq salnaməsinə hər gün yeni-yeni səhifələr yazılan, qısa müddət ərzində əsl intibaha qovuşan ulu diyarımızın hər bir bölgəsi, qurub-yaradan adamları bu şeirlərdə möhtəşəm əzəmiti və heyrətamiz tərəqqisi ilə təsvir olunmuşdur:

*Rəngbərəngdir sağın, solun,*
*Nəqşi-cahan – gül şəhərim.*
*Ruhumda xoş avaz olan,*
*Şeirimdə könül şəhərim.*
*Qocadır, hey cavanlaşır,*
*Dəyişir hər il şəhərim.*
*Yer üzündən göy üzünə*
*Günəş kimi işıq saçan,*
*Naxçıvan!*

*(E.Yurdoğlu)*

Naxçıvanın şanlı keçmişini, igidlik salnaməsini vərəqləyən şairlər bu qədim diyarın məşhur yetirmələrini, onların misilsiz xidmətlərini, fəaliyyətləri ilə məmləkətə şöhrət gətirdiklərini bədii təsvir və tərənnüm obyektinə çevirmişdir. Almanaxdakı şeirlərin bir qismində Naxçıvanın şanlı tarixinin müxtəlif səhifələrini, əbədiyyət sorağını günümüzə çatdıran ölməz yadigarlar bədii təqdimin əsas predmetidir. Bəşər sivilizasiyasının ilkin məskənlərindən olan Gəmiqaya, oradakı qədim qayaüstü rəsmlər, tarixin daş yaddaşı sayılan abidələr, ulu Dədə Qorqudun diyarımızdakı izləri barədə poetik düşüncələr, ümumiyyətlə, Naxçıvanın ulu tariximizin şanlı ünvanı kimi tərənnümü Elmira Qasımovanın "Naxçıvan", Adil Qasımlının "Qoy tanısın dünya məni", Vaqif Məmmədovun "Bura Naxçıvandır", Muxtar Qasımzadənin "Qazan gölüm, Göygölüm", Xanəli Kərimlinin "Muzeydə düşüncələr", Vəli Qaraxanın "Naxçıvan", Sona Rəhimlinin "Naxçıvanım" şeirlərində aparıcı əlamətdir. Almanaxdakı belə şeirlərdə həm də Naxçıvanın dünəni ilə yanaşı, bugünkü yüksəlişi də dolğun bədiiliklə təqdim olunur, yurd sevgisinin poetik tərənnümü bu nümunələrdə rəngarəng bədii boyalar sayəsində ədəbi müstəviyə gətirilir. Kəmalə Ağayevanın "Mənim Naxçıvanım", İbrahim Yusifoğlunun "Şərurun", Əbülfəz Muxtaroğlunun "Göygöl", Zeyqəm Vüqarın "Naxçıvanımdı", Əli Göydağlının "Naxçıvanım", Maarif Təmkinin "Naxçıvan", Qafar Alışarlının "Şərurun", Dilbər Şahbuzun "Naxçıvanım", Qanun Ümmanın "Gözəlliklər diyarısan, Naxçıvan" və sair şeirlərdə isə doğma diyarımızın təbii gözəllikləri, könüloxşayan mənzərələri ilhamla vəsf olunur.

Kitabın poemalar bölməsində üç əsər verilmişdir. Həsənəli Eyvazlının "Naxçıvan haqqında ballada"sında tarixiliklə müasirliyin vəhdəti fonunda muxtar respublikamızın möhtəşəm inkişafı bədii təqdimin əsas leytmotividir. Poemanın ilk bölmələrində Naxçıvan barədə yığcam poetik ümumiləşdirmələr verilir, onun tarixinə nəzər salınır, sonra isə diqqət ulu öndərin xilaskarlıq missiyasına yönəldilir. Poemada müasir Naxçıvanın gündən-günə artan yeni quruculuq ünvanları da ədəbi düşüncələrin axarında öz layiqli yerini tutmuşdur. Şairin fərəh dolu misraları da məhz bu yüksəlişin nuruna boyanmışdır:

*Naxçıvanım dönübdür*
*Gülzarlıq məkanına.*
*Naxçıvanım dönübdür*
*Tikinti meydanına.*
*Yeni ünvan yazılır*
*Hər gününə, anına.*
*Bir dahinin adına*
*Layiq işlər görülür.*

Qafar Qəribin "Qədim, yeni Naxçıvanım" poemasında Naxçıvanın yaxın keçmişi ilə bu günü müqayisəli şəkildə diqqət mərkəzinə çəkilir, iyirmi beş-otuz il bundan əvvəl acınacaqlı durumda olan diyarımızın hər bir yaşayış məntəqəsinin qısa müddət ərzində möhtəşəm və hərtərəfli tərəqqiyə qovuşması ulu öndər Heydər Əliyev siyasətinin parlaq təzahürü kimi vəsf olunmuşdur. Ucqar dağ kəndlərindən başlamış paytaxta qədər hər bir guşəsi gündən-günə gözəlləşən, inkişaf edən Naxçıvanın tərənnümü burada da əsas yeri tutur. Muxtar respublika rəhbərinin məqsədyönlü, möhtəşəm fəaliyyəti sayəsində qərinələrə bərabər inkişaf yolu keçən Naxçıvan, doğrudan da, əsl ilham mənbəyi, qürur qaynağıdır:

*Kökündən dəyişildi*
*Hər kənd, hər şəhərimiz.*
*Gün-gündən gözəl gəldi,*
*Müjdələrlə açıldı*
*Hər yeni səhərimiz...*

Zaur Vedilinin "Yeniləşən Naxçıvan" poemasında isə muxtar respublikamızın sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində böyük uğurlar qazanması lirik düşüncələrin axarı boyunca özünün bədii təcəssümünü tapmışdır.

Nəhayət, hazırda özünün əsl intibah dövrünü yaşayan Naxçıvanın əsrlərin yadigarı olan tarixi-memarlıq abidələrini, əsrarəngiz, füsunkar təbiətini, çağdaş tərəqqisini, coxşaxəli və möhtəşəm tikililərini, quruculuq və abadlıq ünvanlarını əks etdirən nəfis fotoların da kitaba daxil edilməsi ədəbi əsərlərdən alınan təəssüratı tamamlanmasına uğurla xidmət göstərir.

*Bütövlükdə, "Xoş baharlı Naxçıvanım" (redaktoru Muxtar Qasımzadə) almanaxı ulu diyarımızın tarixi, bu günü, təbii gözəllikləri, qurub-yaradan insanları, çağdaş tərəqqisi barədə mükəmməl ədəbi topludur.*

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi***

---

**_Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin bir qrup əməkdaşının Naxçıvan Dövlət Universitetində müvafiq ixtisasların müəllim və tələbələri ilə görüşü keçirilib. Görüşü universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb._**

## Mədəniyyət və Turizm Nazirliyi 23 ixtisasa hamilik edir



Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək Naxçıvanda mədəniyyətin inkişafına, mədəni irsimizin qorunmasına göstərilən dövlət qayğısından, bu sahədə qazanılan uğurlardan danışıb. Qeyd olunub ki, bu gün muxtar respublikada 3 dövlət, 5 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 dövlət uşaq filarmoniyası, 28 muzey və 1 rəsm qalereyası, 234 kitabxana, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, 226 klub və mədəniyyət evi fəaliyyət göstərir. Çoxsaylı özfəaliyyət və folklor kollektivləri milli mədəniyyətin, incənətin təbliğinə, dünyada tanıdılmasına öz töhfələrini verməkdədir.

Nazir xalq yaradıcılığı günlərinin ənənəyə çevrilməsi, muxtar respublikada keçiriləcək muğam müsabiqəsinə hazırlıq işləri, kitabxana işinin müasir standartlara uyğun təşkili, muzey quruculuğu, tarixi-mədəni abidələrin qorunması və bərpası, teatr sahəsindəki uğurlar, yeni musiqi kollektivlərinin yaradılması barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi muxtar respublikanın nüfuzunun, bu qədim diyara göstərilən etimadın ifadəsidir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyi ümumilikdə 23 ixtisası hamiliyə götürüb, bu məqsədlə kollektiv görüşlər, kitab müzakirələri, aktyorluq sənəti ixtisası üzrə ustad dərsləri, muzey işi və kitabxanaçılıq ixtisasları üzrə açıq dərslər, mühazirə, kurs və konfranslar keçirilib, mədəniyyət və turizm obyektlərinə ekskursiyalar, təcrübələr təşkil olunub.

Görüşün sonunda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə 2007-ci ildə "Salnamə" kinostudiyası tərəfindən çəkilən "Heydər Əliyev: Azərbaycan mədəniyyətinin hamisi" adlı qısametrajlı sənədli film nümayiş etdirilib.

**Mehriban SULTAN**

---

## Qadın mədəniyyət işçilərinin onkoloji müayinələrinə start verilib

**_Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, qadınlar arasında süd vəzi xərçəngönü xəstəliklərinin aşkar edilməsi üçün kütləvi profilaktik tibbi müayinələr davam etdirilir._**

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkim-onkoloqları tərəfindən son iki ildə Naxçıvan şəhəri və rayonlar üzrə 2000-dən çox qadın təhsil işçisinin süd vəzinin profilaktik müayinəsi həyata keçirilib. Müayinələr zamanı 85 qadının süd vəzində fibroadenoma, mastopatiya və digər patologiyalar aşkar edilərək onlar Onkoloji Mərkəzə dəvət olunub və mammoqrafiya müayinəsindən keçirilərək diaqnozu dəqiqləşdirilib, müvafiq müalicələr təyin edilib.

Cari ilin profilaktik tibbi müayinələri isə muxtar respublikanın mədəniyyət işçilərini əhatə edir. Belə ki, artıq qadın mədəniyyət işçiləri arasında süd vəzinin profilaktik müayinəsinə başlanılıb.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Onkoloji Mərkəzin baş həkimi Viladi Cabbarov bildirib ki, 35 yaşdan sonra hər bir qadın ildə bir dəfə həkim müayinəsindən keçsə, problem erkən mərhələdə müəyyənləşdirilsə, xəstəliklə mübarizə asanlaşır və o, müvəffəqiyyətlə müalicə olunur.

Bu patologiyanın bütün dünyada qadınlar arasında ən çox yayılmış xərçəng növü olduğunu vurğulayan onkoloq digər xəstəliklərdən fərqli olaraq bu xəstəlikdə yaş amilinin mühüm rolunu qeyd edib. Bildirilib ki, ölkəmizdə son illər onkoloji xidmətin müasir standartlara uyğunlaşdırılması və maarifləndirmə işinin genişləndirilməsi nəticəsində xəstəliyin əlamətləri daha erkən aşkarlanır və uğurlu müalicə üsullarından istifadə edilir.

Sonra Naxçıvan Dövlət Filarmoniyası, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası və Heydər Əliyev Sarayında çalışan 111 nəfər qadın mədəniyyət işçisi müayinədən keçib.

Müayinələr həftədə iki dəfə olmaqla, ilboyu davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Vergidən niyə yayınırıq?

## Nəzarət-kassa aparatlarından istifadə vəziyyəti ilə bağlı bir neçə qeyd

***Naxçıvan Muxtar Respublikasında ticarət və xidmət sahələrində əhalidən ödənc şəklində daxil olan nağd pul vəsaitlərinin qəbulunu və qeydiyyatını qaydaya salmaq, pul dövriyyəsini möhkəmləndirmək, vergilərin yığılıb büdcəyə daxil olmasını təmin etmək və istehlakçıların hüquqlarını müdafiə etmək məqsədilə hüquqi-təşkilati və mülkiyyət formalarından, habelə tabeliyindən asılı olmayaraq, bütün ticarət, ictimai iaşə və xidmət obyektlərində əhali ilə nağd pul hesablaşmalarının aparılmasında nəzarət-kassa aparatları tətbiq olunur, bu sahə ilbəil təkmilləşdirilir. Ancaq bütün bunlara baxmayaraq, nəzarət-kassa aparatlarından istifadə sahəsində nöqsanlar hələ də qalmaqdadır. Bunu ən böyük bölgələrimizdən biri olan Şərur rayonunda apardığımız müşahidələr zamanı bir daha gördük.***

Müşahidələrimiz zamanı məlum oldu ki, rayonun Xanlıqlar kəndində fəaliyyət göstərən ərzaq mağazasında satıcı nəzarət-kassa aparatını yalnız çek tələb etdikdən sonra işə salır. Həmin kənddəki sənaye malları mağazasında isə sözügedən aparat işləmirdi. Satıcı bunu onunla izah etdi ki, o, yeni gəlib və nəzarət-kassa aparatını işlətməyi bacarmır.

Həmin rayonun Kürkənd kənd xidmət mərkəzindəki ərzaq mağazasında nəzarət-kassa aparatı, ümumiyyətlə, yox idi, POS-terminal isə işləmirdi. Kürçülü kəndindəki ərzaq mağazasında isə satıcı nəzarət-kassa aparatının uzun müddətdir, işləmədiyini, düzəldilməsi üçün müvafiq quruma müraciət etdiyini söylədi. Rayonun Yengicə kəndindəki mağazalarda da nədənsə, satıcılar nəzarət-kassa aparatını işə salmağı unudurlar. Cəlilkənddəki mağazalarda nəzarət-kassa aparatlarının olmamasını bununla izah etdilər ki, burada obyektlər yaxın vaxtlarda istifadəyə verilib. Müraciət ediblər, gəlib quraşdıracaqlar.

Bənzər vəziyyətlə Şərur şəhərində də qarşılaşdıq. Mağazaların əksəriyyətində satıcılar nəzarət-kassa aparatından istifadə etmirlər. Şərur şəhərindəki "Sümbül Market" adlanan mağazada satıcı yalnız çek tələb etdikdən sonra nəzarət-kassa aparatını işə saldı.

Şahbuz rayonunda nəzarət-kassa aparatlarının işlək vəziyyətdə olub-olmaması ilə əlaqədar bir neçə dəfə araşdırma aparmağımıza, bununla bağlı müvafiq orqanlara məlumat verməyimizə baxmayaraq, bu sahədə nəzərəçarpan irəliləyiş yoxdur. Belə ki, Aşağı Qışlaq kəndində İntiqam Eylazova, Şahbuz şəhərində Məhərrəm Salmanov və Ədalət Məmmədova aid mağazalarda nəzarət-kassa aparatlarının işlək vəziyyətdə olmadığının şahidi olduq. Hətta israrla çek tələb etməyimizə baxmayaraq, Məhərrəm Salmanova məxsus mağazada bu avadanlığı uzun müddət işə sala bilmədilər. Rayon ərazisindəki əksər mağazalarda vəziyyət eynidir.

Ordubad rayonundakı mağazalarda nəzarət-kassa aparatlarından istifadə etmək lazım olduğunu biz yada saldıq. Belə ki, Ordubad şəhərindəki Cəfər Nəsirova aid əczaxananın satıcısı Madər Məmmədovadan çek tələb etdikdə o, nəzarət-kassa aparatının işləmədiyini bildirdi. Eyni vəziyyətlə şəhərdəki Şahin Ağacanova və Rəsmiyyə Həsənovaya məxsus mağazalarda da qarşılaşırıq. Şəhərdəki ticarət mərkəzindəki ət satışı mağazasında isə nəzarət-kassa aparatının olmamasını qəribə bir məntiqlə əsaslandıraraq dedilər ki, ət satışı mağazalarında nəzarət-kassa aparatının quraşdırılmaması tapşırılıb.

Culfa şəhərində isə nəzarət-kassa aparatları ilə bağlı ciddi iş aparılıb. Müşahidə apardığımız mağazalarda nəzarət-kassa aparatlarından istifadə edildiyinin şahidi olduq.

Naxçıvan şəhərindəki böyük ticarət mərkəzlərində bu sahədə aktivlik var, yəni müştərinin tələb edib-etməməsindən asılı olmayaraq, çek təqdim olunur. Ancaq eyni sözləri xırda sahibkarlıq subyektləri haqda demək olmaz. Belə ki, şəhərin Atatürk küçəsindəki Asif Əliyevə məxsus olan bəzək əşyaları mağazasında satıcı nəzarət-kassa aparatının təmirdə olduğunu dedi. Xətai küçəsindəki Mərkəzi Bazarda 11 nömrəli mağazanın sahibi Vaqif Süleymanov dedi ki, buradakı mağazaların əksəriyyətində nəzarət-kassa aparatı yoxdur. Sahibkar Telman Quliyevə aid mağazada piştaxtanın arxasında olan şəxsdən nəzarət-kassa aparatını işə salmasını və nümunə üçün çek verməsini xahiş etdikdə deyir ki, bu aparatı ancaq mağaza sahibi işlədə bilir. Bazarda daha bir mağaza sahibi Hünər Heydərovla da nəzarət-kassa aparatının əhəmiyyəti ilə bağlı həmsöhbət oluruq. O deyir ki, kimliyindən asılı olmayaraq, hər kəsə çek verilir. Ancaq məsələ ondadır ki, alıcılardan heç biri çek tələb etmir, ona uzadılan çekə etinasızlıq göstərir. Bu da bəzi mağaza sahiblərində arxayınçılıq yaradır.

Naxçıvan şəhərinin "İstiqlal" küçəsindəki fiziki şəxs Kəmalə İbrahimovaya və Teymur Qasımova məxsus mağazalarda satıcılar biz çek tələb etdikdən sonra nəzarət-kassa aparatını işə saldılar. Həmin küçədəki "Nur" əczaxanasında da satıcı ancaq tələbdən sonra çek verir.

Müşahidələrimiz zamanı gördük ki, ticarət obyektlərinin böyük əksəriyyətində nəzarət-kassa aparatlarının işlək vəziyyətdə olmasına soyuq münasibət göstərilir. Bu zaman belə bir sual ortaya çıxır. Sahibkarlar vergini hansı şəkildə ödəyir, vergi əməkdaşları həmin sahibkarın aylıq dövriyyəsini necə hesablayırlar? Axı, həmin dövriyyəni yalnız və yalnız nəzarət-kassa aparatı və ya POS-terminal göstərə bilər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını və digər məsələlərlə yanaşı, vergi ödəyicilərinin vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini müəyyən edir. Məcəllədə nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək və nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən olunmuş məlumatların əks etdirilməsini təmin etmək vergi ödəyicisinin vəzifəsi kimi müəyyən olunub. Məcəllədə o da qeyd edilir ki, istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi ödəyicisi vergi orqanlarına dərhal məlumat verməklə nəzarət-kassa aparatından istifadəni müvəqqəti dayandırmalı və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada aparılmasını təmin etməlidir. Bu vəzifələrin icra edilməməsi və ya lazımı qaydada icra edilməməsi vergi qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur. Nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları tətbiq edilmədən, vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə olunmaqla əhali ilə pul hesablaşması qaydalarının pozulmasına, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə müəyyən məbləğdə maliyyə sanksiyası tətbiq edilir.

Sonda nəzarət-kassa aparatlarının tətbiqi ilə bağlı qonşu ölkə olan Türkiyədə qarşılaşdığım bir hadisəni oxucuların diqqətinə çatdırmaq istərdim. Bu ölkənin İstanbul şəhərində hədiyyəlik əşyalar mağazasından Naxçıvana gətirmək üçün bir neçə hədiyyə aldım. Satıcı elə o dəqiqə çeki mənə təqdim etdi. Ancaq mən buna əhəmiyyət verməyib çeki kassa aparatının yanında qoyub bayıra çıxdım. Elə həmin dəqiqə iki nəfər başımın üstünü kəsdirdi və bu malları haradan aldığımı soruşdu. Mən isə yaxınlıqdakı mağazanı göstərdim. Onlar buna inanmadıqlarını və mənim bu əşyaları oğurladığımı iddia etdilər. Dedilər ki, əgər buradan almısansa, onda çeki göstərməlisən. Təbii ki, elə öz günahımdan çek mağazada qalmışdı və onu axtarıb tapmaq uzun bir zaman aldı. Uzun mübahisədən sonra məlum oldu ki, bu adamlar yerli vergi xidmətinin əməkdaşlarıdır və insanları çek tələb etməyə alışdırmaq üçün bu vasitəyə əl atıblar.

Bəli, nəzarət-kassa aparatlarının işləməməsinin əsas səbəblərindən biri də vətəndaşların məsələyə səhlənkar yanaşmasıdır. Çünki biz istehlakçılar alınmış mallara görə mağazadan çek almadan ordan uzaqlaşırıq. Belə olan halda vergilərin tam şəkildə ödənilməsinə şərait yarada, beləliklə də, dövlətimizin inkişafına töhfə verə bilmərik. Sahibkarlar vergidən yayınmaq üçün nəzarət-kassa aparatlarının işləməməsində maraqlı ola bilərlər. Vətəndaşlar isə vergilərin büdcəyə tam həcmdə ödənilməsində maraqlı olmalıdır. Yaxşı bilməliyik ki, istər vergi ödəyicisinin, istərsə də istehlakçının fərdi maraqlarının təmin olunmasından başqa, nəzarət-kassa aparatının tətbiqi, ümumən, cəmiyyətin maraqlarına xidmət edir. Bu sual hamımızı düşündürməlidir: nəyə görə mənim ödədiyim vergi dövlətimin büdcəsində toplanmasın? Axı yığılan vergilər son nəticədə əmək haqlarının artırılmasına, sosial proqramların icrasına, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, bir sözlə, insanların rifah halının yüksəldilməsinə yönəldilir. Tərəflər arasında aparılan bütün əməliyyatların qeydə alınması kölgə iqtisadiyyatının qarşısının alınmasına, vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına, nəticədə, iqtisadiyyatın inkişafına, dövlətin gücləndirilməsinə gətirib çıxarır. Ona görə də bu işdə hər bir muxtar respublika sakini həssaslıq göstərməli, əsl vətəndaş mövqeyi nümayiş etdirməlidir.

**Səbuhi HÜSEYNOV**

# İdman xəbərləri

***Naxçıvan şəhərindəki Heydər Əliyev adına Olimpiya-İdman Kompleksində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyinə start verilib.***

## Boks birinciliyinə start verilib



60-dan çox dəri əlcək sahibinin mübarizə apardığı birincilikdə Ordubad və Kəngərli boksçuları iştirak edir. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının birgə təşkil etdiyi birincilikdə əsas məqsəd federasiya tərkibində fəaliyyət göstərən klubların işinin təkmilləşdirilməsi və bu növü muxtar respublikada təbliğ etməkdir.

Yarışdan əvvəl çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Canməmməd Canməmmədov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və federasiyanın sədr müavini Məmmədcəfər Əliyev bütün idmançıları 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təbrik ediblər.

Birincilikdə boksçular 12 çəki dərəcəsində güclərini sınayıblar. Final görüşləri isə bu gün keçiriləcək.

## Şahmat məktəbləri arasında interaktiv əlaqə yaradılıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin həlli istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi, dünən ilk dəfə olaraq Naxçıvan Şahmat Mərkəzi ilə rayon şahmat məktəbləri arasında interaktiv əlaqə yaradılıb. Şahmat Mərkəzində keçilən dərsi muxtar respublikanın rayonlarının şahmat məktəblərində bu idman növü ilə məşğul olan 150-dən çox şahmatçı internet üzərindən izləyib.

Muxtar respublikamızda intellektual səviyyəli, vətənpərvər, istedadlı gənclərin yetişdirilməsində, şagirdlərin asudə vaxtlarının səmərəli təşkilində məktəbdənkənar tərbiyə müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Belə tərbiyə müəssisələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Muxtar respublikanın ayrı-ayrı rayonlarında şahmat məktəbləri, uşaq-gənclər yaradıcılıq mərkəzləri və başqa məktəbdənkənar müəssisələr üçün binalar tikilir və ya əsaslı təmir olunaraq şagirdlərin istifadəsinə verilir. Həmin müəssisələrdə fəaliyyət göstərən dərnəklərə xeyli şagird cəlb edilib. Bu dərnəklərin fəaliyyəti sayəsində uşaqların maraq və qabiliyyətlərinin inkişaf etdirilməsi və düzgün formalaşdırılması istiqamətində xeyli işlər görülüb və görülməkdədir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev bildirib ki, ilk dəfə bu cür əlaqənin yaradılması muxtar respublikada şahmat idman növünə marağın daha da artırılması məqsədi daşıyır. Federasiyanın bundan sonra da təşkil edəcəyi dərslər, eyni zamanda məktəbli şahmatçılar arasında münasibətlərin də yaranmasına səbəb olacaq.

## Voleybol üzrə yoldaşlıq görüşündə "Şərur" komandası qalib gəlib



***5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Şərur Olimpiya-İdman Kompleksində voleybol üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası, Şərur və Culfa Rayon Gənclər və İdman idarələrinin birgə təşkil etdikləri görüşdə "Şərur" və "Culfa" komandaları üz-üzə gəlib. Görüşdən əvvəl çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev, Şərur və Culfa Rayon İcra hakimiyyətlərinin nümayəndələri Qafar Musayev və Orxan Ələkbərli Bədən Tərbiyəsi və İdman Günü münasibətilə bütün idmançıları təbrik edib, keçirilən oyunun mahiyyəti barədə danışıblar.

Oyunun nəticəsinə gəlincə, "Şərur" komandası ev sahibliyindən maksimum yararlanaraq culfalı həmkarlarını 3:1 hesabı ilə məğlub edib.

Sonda komandalara hədiyyə təqdim edilib.

## Yüngül atletika turniri keçirilib

***Babək rayonunda isə 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə rayon ümumtəhsil məktəblərinin komandaları arasında yüngül atletika turniri keçirilib.***

Babək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının Babək rayon bölməsinin təşkilatçılığı ilə keçirilən turnirdən əvvəl çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı, Təhsil Şöbəsinin əməkdaşı Müslüm Vəliyev muxtar respublikada idmançılara göstərilən diqqət və qayğıdan danışıblar.

Turnirdə oğlanlar 100, 200, 400, 800 və 1500 metr, qızlar isə 100, 200, 400 və 800 metr məsafəni birinci qət etməyə çalışıblar. Komanda hesabında Didivar kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Digər iki pillədə isə Babək qəsəbə 2 və 1 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 186